# Vətən müharibəsində igidlik göstərənlər orden və medallarla təltif olunacaqlar

***Dekabrın 1-də Laçın rayonu da qansız-qadasız, şəhid vermədən, güllə atmadan azad edildi. Artıq Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Otuz ildir ki, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən, münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş dünyanın ən güclü dövlətlərindən ibarət ATƏT-in Minsk qrupu da Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizamlaya bilmədi. İkili standartların mövcudluğu, dünyada baş alıb gedən islamofobiya münaqişənin ədalətli həllində ciddi problem yaratdı. Yalnız Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, cəsurluğu və polad iradəsi sayəsində 30 illik münaqişəyə son qoyuldu və Ermənistan rəsmən təslim oldu.***

> ***Azərbaycanda yeni medal və ordenlər təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Artıq ölkəmiz üçün yeni dövr başlayır. Ərazi bütövlüyümüz təmin olunub, qarşıda duran prioritet vəzifələrdən biri işğaldan azad edilmiş yaşayış məntəqələrini yenidən qurmaq, abadlaşdırmaq və həmin ərazilərin sakinlərinin doğma yurdlarına qayıtmalarını təmin etməkdən ibarətdir. Axı, düşmən 27 ildən artıq işğal altında saxladığı əraziləri yerlə-yeksan edib, daşı daş üstündə qoymayıb. İşğaldan azad edilmiş ərazilərə getmiş Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri, həmçinin xarici jurnalistlər bir daha erməni vəhşiliyini, barbarlığını, faşistlərdən də qəddar, amansız olduqlarını şəxsən görüb əmin olublar.

İndi yeni quruculuq , inkişaf dövrünə – azad edilmiş ərazilərimizin bərpasına start verilib. Dövlətimizin başçısı Laçının işğaldan azad edlməsi ilə əlaqədar xalqa müraciətində də Azərbaycan xalqının bu dövrdə də birlik, həmrəylik göstərəcəyinə, güclü iradə nümayiş etdirəcəyinə əminliyini bildirdi. Dövlət başçısı dedi ki, Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir: "Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

Xalqımız bu günləri böyük səbirsizliklə gözləyirdi. Çünki müzəffər ordumuz Vətən müharibəsinin ilk günlərindən qələbə qazanmışdı və 44 gün ərzində düşməni diz çökdürdü. Döyüşçülərdə hərbi vətənpərvərlik hissi o dərəcədə yüksək, düşməndən intiqam almaq, işğal altında olan torpaqlarımızı azad etmək niyyəti o qədər güclü idi ki, hətta yaralanmış və ağır vəziyyətdə olan əsgərlərimiz hospitallarda, xəstəxanalarda deyirdilər ki, tezliklə sağalaq və yenidən döyüş bölgələrinə qayıdaq. Elə də olurdu. Şəhidlərimizin ruhu şad olsun! Valideynləri onları dəfn edərkən deyirdilər ki, Vətən sağ olsun, ancaq irəli və irəli!

Ali Baş Komandan dəfələrlə bildirmişdi ki, Vətən müharibəsində igidlik göstərənlər heç vaxt



unudulmayacaqlar. Sentyabrın 30-da Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başladığı hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bu məsələni xüsusi olaraq vurğulayaraq demişdir ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Dövlət başçısı, hətta bu orden və medalların adlarını da özü təklif etdiyini bildirmişdi.

Prezident İlham Əliyev indiyədək verdiyi bütün vədləri layiqincə yerinə yetirib. Dövlətimizin başçısı bu dəfə də verdiyi vədə sadiqliyini nümayiş etdirdi. Vətən müharibəsi başa çatan kimi yeni orden və medalların təsis olunması barədə qanun qəbul edildi. Dövlət başçımızın 1 dekabr 2020-ci il tarixli "Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanununun tətbiqi haqqında fərmanı da bundan xəbər verir. Ölkə Prezidenti, həmçinin Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi barədə də fərman imzalayıb.

"Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanuna əsasən , "Zəfər" və "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı", o cümlədən, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" , "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" , "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə" , "Vətən müharibəsi iştirakçısı" , "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları da təsis edilib. Göründüyü kimi, Vətən Müharibəsində igidlik göstərənlərin hər biri orden və medallarla təltif olunacaq.

Qanunun 1.1. 1-ci maddəsində qeyd edilir: "Azərbaycan Respublikasının ən yüksək təltifi – "Heydər Əliyev" ordeni;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin: "Zəfər" ordeni; "Qarabağ" ordeni".

Azərbaycan Respublikasının "Zəfər" ordeni ilə ölkəmizin ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi zamanı əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatlarına, dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş silahlı qüvvələrimizin hərbi hissə komandirləri və onlardan yuxarı rəhbər heyəti, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

Azərbaycan Respublikasının "Qarabağ" ordeni ilə işğal edilmiş ərazilərimizin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərmiş, hərbi əməliyyatlar zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərdlik və qətiyyət nümayiş etdirmiş, dövlət sərhədimizin bərpa və mühafizə edilməsində xüsusi xidmət göstərmiş silahlı qüvvələrimizin hərbi qulluqçuları, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

Yeni təsis edilmiş medallarla döyüş şəraitində tapşırıqların icrası zamanı və həyat riski ilə əlaqəli xüsusi əməliyyatlar zamanı cəsarət və fədakarlıq göstərənlər, eləcə də döyüş tapşırıqlarını uğurla yerinə yetirənlər, havada və yerdə düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş hərbi qulluqçular təltif olunacaqlar.

Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, Vətən müharibəsində iştirak edənlər, əlil olanlar, şəhidlər heç vaxt unudulmayacaq: "Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq".

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***